# Musiqi tənqidi tarixinə nəzər

**Elmira Musa qızı Əfəndiyeva**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Musiqi və onun tədrisi texnologiyası kafedrasının dosenti,*
*əməkdar müəllim*
**E-mail:** elmira_efendiyeva@mail.ru

**Rəyçilər:** p.ü.f.d. dos. G.V. Sultanova,
p.ü.f.d., dos. Y.A. Allahverdiyev

**Açar sözlər:** musiqi tənqidi tarixindən, Qərbi Avropa musiqi tənqidi, rus musiqi tənqidi, Azərbaycan musiqi tənqidi, Ü. Hacıbəylinin musiqi tənqidi sahəsində fəaliyyəti

**Ключевые слова:** из истории музыкальной критики, западноевропейская музыкальная критика, русская музыкальная критика, Азербайджанская музыкальная критика, музыкальная критика У.Гаджибейли в творческой деятельности

**Key words:** from the history of musical criticism, Western European music criticism, Russian music criticism, Azerbaijani music criticism, musical criticism of U. Hajibayli in creative activity

Bəşəriyyətin çoxəsrlik mədəni irsində musiqi tənqidinin tarixi xüsusi əhəmiyyət kəsb edir. Musiqi şəxsiyyətin estetik tərbiyəsi sistemində mühüm yer tutduğu kimi insan şəxsiyyətinin formalaşmasında incəsənətin mühüm sahəsini təşkil edir. Musiqi tənqidinin araşdırılması şəxsiyyətin estetik tərbiyəsi sistemində xüsusi yer tutur.

Musiqi tənqidi musiqişünaslığın ümumi metodologiyasına əsaslanaraq musiqinin tarixinə istinad edir. Musiqişünaslığın inkişafı ilə sıx əlaqədar olaraq musiqi tənqidi həyatla, ictimai mübarizə ilə dövrün fəlsəfi və estetik ideyaları ilə sıx bağlıdır.

Musiqi tənqidinin tarixinə bir sıra alimlərin xüsusi yanaşmaları olmuşdur. Musiqi tənqidi sahəsində tədqiqatın araşdırılması XVIII əsrdə Fransa və Almaniya musiqi mədəniyyəti ilə əlaqədar olmuşdur. Hər iki ölkədə musiqi tənqidinin tarixi həm dövri, həm də xüsusi mətbuat orqanlarında kifayət qədər təmsil olunmağa başlamışdır. Hər iki ölkədə bu sahənin məzmunu və mövzu dairəsinə maarifçiliyin müsbət təsiri olmuşdur. Fransız dövri mətbuatında cari musiqi həyatının panoraması kifayət qədər dolğun əks olunur, Almaniyada isə nəşr edilən musiqi jurnallarında tənqidi məqalələr aparıcı yer tuturdu. Maarifçiliyin güclü təsiri ilə yaranan və formalaşan musiqi tənqidçiləri arasında peşəkar musiqiçilərlə yanaşı Fransada J.J.Russo, J.Dalamber, D.Didro. Almaniyada F.Marburq, Q.E.Lessinq, K.D.Şubart, İ.F.Reyxard, F.Rozilts və sairə kimi alim ensiklopedistlər olmuşlar.

Bu şəxsiyyətlərin fikrincə, incəsənət həyatda ən vacib olan hadisələri təsvir etdirməli, insanlara onların həyat tərzini dəyişdirmək üçün yol göstərməli idi. Bu prinsiplərə əsaslanaraq onlar əsərlərində öz idealist fikirlərini izah etdirirdilər. D.Didronun "O yaxşı adamdır, yoxsa pis?" birpərdəli pyesi "Rahibə", "Fatalist Jak" romanları, J.Dalamberin əsərləri içərisində "Elmlərin mənşəyi və inkişafı" fəlsəfi oçerki, "Musiqidə sərbəstlik haqqında" musiqi nəzəriyyəsi və estetikasına dair bir sıra əsərləri, J.J.Russonun "Emil", "Juliya, yaxud Yeni Eloiza", Q.E.Lessinqin "Emilya Qalotti" faciəsi, "Müdrik Maqan" poeması, "Hamburq dramaturgiyası" əsərləri və bir çoxlarını göstərmək olar. Demokratik milli mədəniyyət uğrunda mübarizə, zülm və zorakılığın ifşası bu sənətkarların yaradıcılıq fəaliyyətlərinin leytmotivi idi. Onlar öz

əsərlərində realist estetika və dramaturgiyanın nəzəri prinsiplərini inkişaf etdirməyə çalışırdılar.

Öz əsərlərində onlar ziyalı incəsənətinin əleyhinə çıxaraq müsbət qəhrəman obrazlarını ön plana çəkirdilər. Bu sənətkarların fikrincə kübar cəmiyyət üçün nəzərdə tutulmuş teatrın əvəzinə, əhalini bir-birinə yaxınlaşdıran xalq teatrı, şənlikləri ideyası daha önəmli olardı. Onlar musiqidə fransız saray operasının cansıxıcı rasionalizmini inkar edərək ehtiraslı, canlı musiqi olan melodik xalq mahnılarından istifadə etməyi üstün tuturdular.

Fransada da Almaniyada da musiqi tənqidinin fəallaşmasını təmin edən başlıca amil – musiqi yaradıcılığı ilə bağlı məsələlər ətrafında gedən fikir mübadiləsinə cəmiyyət tərəfindən böyük marağın və tələbatın yaranması idi. Xüsusi opera sənəti sahəsində yaranan ehtiraslı polemika Fransada musiqi tənqidi sahəsində diqqəti cəlb edən mövzulardan biri idi.

Avropanın digər ölkələrində musiqi tənqidinin müstəqil sahə kimi formalaşması XIX əsrlə bağlı olmuşdur. XIX əsrdən başlayaraq musiqi aləmində keçən əsrdən qalma, “saray-salon” qapalılığının aradan qaldırılması, konsert həyatının iştirak etdiyi əsas musiqi ifaçılığı formalarından birinə çevrilməsi ilə əvəz edildi.

Avropa cəmiyyətinin mədəni həyatının quruluşunda, xarakterində baş verən yeniləşmə, dövri mətbuatın üstünlük qazanması musiqi aləmində diqqəti cəlb edən müxtəlif hadisələri izləmək qiymətləndirmək tələbatını xeyli artırırdı. Musiqi mədəniyyətinin ən müxtəlif problem və məsələləri – yaradıcılıq üslublarının nəzəri, estetik, bədii keyfiyyətləri, mövzu və məzmun seçimi, musiqidə millilik, klassik irsə münasibət, ideoloji ziddiyyətlər, ifaçılıq sənəti və verilən qiymət – musiqi tənqidinin əsas sahəsini təşkil edirdi.

Musiqi tənqidinin nüfuzu və yaradıcılıq proseslərinə təsiri tədricən artırdı. Bu dövrdə aparıcı bəstəkarların, ifaçıların musiqi tənqidçisi kimi çıxışları gündəmdə idi. F.List, G.Berlioz, R.Şuman, R.Vaqner, E.Qriq, K.Debüssi, P.Çaykovski, N.A.Rimski-Korsakov və başqalarının musiqi sahəsində mətbuatda çıxışları, musiqi tənqidi məqalələri diqqəti cəlb edirdi. Eyni zamanda sırf musiqi tənqidçisi peşəsinin ilk parlaq nümayəndələri – Fransada R.Rollan, Almaniyada A.B.Marks, Çexiyada E.Qanslik, Rusiyada A.N.Serov, V.V.Stasov mötəbər musiqi təndidçiləri kimi musiqi mədəniyyətinin aktual məsələlərini işıqlandıraraq ictimai rəyi formalaşdırırdılar.

Azərbaycanda musiqi tənqidinin formalaşmasına qərb mədəniyyətinə olan inteqrasiyası təkan verdi. Bu inteqrasiyanın mahiyyəti dərin və çoxsahəlidir. Əsrlərlə şərq mədəniyyəti və incəsənəti dairəsinə mövcud olan bir sistemdə inkişaf edən Azərbaycan Avropadan gələn meylləri qəbul edərək yeni sistemdə öz milli ənənələrini yaratmağa, inkişaf etdirməyə başladı. İnteqrasiya prosesi cəmiyyətdə yeni musiqi-bədii ənənələrinin yaranmasına və inkişafına təkan verdi. Bu proses Azərbaycanın daxilində, yerli qüvvələr tərəfindən stimullaşdırıldı. Musiqi tənqidinin yaranması və tezliklə peşəkar səviyyəyə qalxması bunu bir daha isbat etdi. Avropada qəbul edilmiş dəqiq və konkret forma və janrların milli zəmində qavranılması, musiqi tənqidinin geniş həcmdə fəaliyyəti bunu bir daha təsdiq etdi.

XX əsrin birinci yarısı yaradıcılıq fəaliyyətinə başlamış, bu sahədə gedən müvafiq yeniliklərin təşəbbüskarı və icraçısı olmuş Üzeyir bəy Hacıbəylinin adı ilə bağlıdır. Dünya musiqi mədəniyyəti tarixində Ü.Hacıbəyli Şərqində yeni üslublu bəstəkarlıq ənənəsini yaratmışdır. Onun 1908-ci ildə tamaşaya qoyulmuş “Leyli və Məcnun” operası həm ilk Azərbaycan, həm də ilk Şərq operası bunu bir daha sübut etdi. Şərqdə məhz Azərbaycanda ilk opera, musiqili komediya, ilk kamera instrumental əsərlər, xorlar, Azərbaycan dövlətinin rəmzi olan hər iki milli himnin müəllifi də Üzeyir Hacıbəyli olmuşdur. O, həmçinin Azərbaycan xalq mahnılarının da nota köçürülməsinin, tərtib edilməsinin təşəbbüskarı olmuşdur. İlk Azərbaycan Dövlət Konservatoriyasının bünövrəsini qoymuş Avropa təmayüllü milli musiqi təhsili sisteminin

təşkilatçısı da məhz Üzeyir Hacıbəyli olmuşdur.

Üzeyir Hacıbəyli XX əsrin əvvəllərində musiqi tənqidçisi kimi fəaliyyəti çox məhsuldar idi. Dahi bəstəkarın dövri mətbuatda çap olunmuş məqalələri xüsusi tədqiqat obyekti olaraq böyük maraq doğurmuşdur. Üzeyir Hacıbəyli öz məqalələrini həmçinin "Filankəs", "Oradan-burdan", "Musiqiçi", "Bir nəfər" və s. kimi başlıqlarla, imzalarla nəşr etdirirdi.

Həmin dövrdə yaranan bir çox proseslərin mənasını, istiqamətini, mətbuat səhifələrindən izləmək mümkün idi. "Həyat", "İrşad", "Tərəqqi", "İqbal", "Yeni iqbal", "Açıq söz", "Sovqat", "Molla Nəsrəddin", "Hümmət", eləcə də rus dilində «Каспий», «Баку», «Вестник Баку», «Бакинец», «Азербайджан», «Кавказская копейка» qəzet və jurnallarında dərc edilmiş saysız-hesabsız musiqi tənqidi məqalələr məzmununa, üslubuna, janrına görə bir-birindən fərqlənir, xüsusi əhəmiyyət kəsb edirdi. Azərbaycan tarixinin görkəmli şəxsiyyətlərindən olan Həsən bəy Zərdabi, Məmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Abbas Səhhət, Cəlil Məmmədquluzadə, Yusif Vəzir Çəmənzəminli, tanınmış jurnalistlərdən Mehdi bəy Hacınski, Cəmo bəy Hacınski, Hacı İbrahim Qasımov, Məmməd Sadıx Axundov, Piri Mürsəlzadə, Əli Fəhmi, ilk bəstəkar, musiqişünas Üzeyir bəy Hacıbəylinin həmkarı və silahdaşı Müslüm Maqomayevin çox dəyərli və əvəzolunmaz məqalələrin müəllifləri olmuşlar. Azərbaycanda dərc edilən musiqi tənqidi məqalələr məzmununa görə bir-birindən fərqlənirdi. Yeni yaranan opera və operettaların ilk tamaşaları Bakıya gəlmiş əcnəbi ifaçıların çıxışlarına yazılan rəylər elmi-ümumiləşdirmələr və sairələr mühüm əhəmiyyət kəsb edirdi. Müasir dövrdə də aktual səslənən, cəmiyyətimizi narahat edən bir sıra problemlər, musiqi məqamlarına həsr olunan məqalələr, xəbərlər Azərbaycanda musiqi tənqidinin inkişaf yolunu təyin edir.

**Məqalənin aktuallığı.** Musiqi tənqidinin araşdırılması şəxsiyyətin estetik tərbiyəsi sistemində mühüm əhəmiyyət kəsb etdiyindən məqaləni aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan işarətdir ki, məqalədə musiqi tənqidinin tarixinə dair müxtəlif alimlərin yanaşmalarına toxunulur, bir sıra xarici ölkələrdə musiqi tənqidi sahəsində aparılan tədqiqatlardan söhbət açılır, eləcə də ölkəmizdə musiqi tənqidinin formalaşmasına qərb mədəniyyətinə olan inteqrasiyadan danışılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də musiqi tənqidçiləri istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Abbasova E. Ü.Hacıbəylinin opera və musiqili komediyaları. Bakı, 1961.
2. Qasımov Q. Azərbaycan musiqi incəsənəti. Bakı, 1961.
3. История музыкальной эстетики. Т.1, М., 1959.
4. Келдыш Г.В. История русской музыки. М., 1947.
5. Ливанова Т.Н. История западно европейской музыки. М., 1940.
6. Стасов В.В. Сборник статей писем и воспоминаний. М., 1949.
7. Хубов Г.М. О музыке и музыкантах. М., 1959.

**Э.М. Эфендиева**

## Взгляд на критическую историю музыки


## Резюме

Музыка тесно связана с критической жизнью, социальной борьбой, философскими и эстетическими идеями. Изучение музыкальной критики играет особую роль в системе эстетического воспитания. Формирование музыкальной критики в Азербайджане было вызвано интеграцией западной культуры.


**E.M. Afandiyeva**

## A look at the critical history of music


## Summary

The music is intertwined with a critical image, a social bubble, a philosophical and aesthetic idea. The search for a musical critique plays an intriguing role in the system's aesthetic appeal. Formation of music critics in Azerbaijan integrated into the cultural background.


**Redaksiyaya daxil olub:** 24.02.2020